# QAN YADDAŞIMIZ

**Elə faciələr var ki, uzun illər keçsə də, onu heç vaxt, heç zaman unutmaq olmur. Çünki həmin faciələr zamanı minlərlə insanın evləri dağıdılır, ocaqları söndürülür, yurd-yuvası tarımar edilir və minlərlə də insan hansısa vəhşiliyin, qəddarlığın, zülmkarlığın qurbanına çevrilir. Təsadüfi deyil ki, bu vəhşiliyi də hər millət, hər xalq törədə bilməz.**

Dünya tarixində Xocalı faciəsi ən qanlı səhifələrdən biridi desək yanılmarıq. Ən azından ona görə ki, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhəri və onun minlərlə sakini amansızcasına məhv edilib.

Bu faciəni törədənlər heç vaxt özbaşına belə addım ata bilməzdilər. Çünki ermənilərin arxasında Rusiyanın 366-cı alayı dayanmışdı. Erməni-rus birləşmələri Xocalı faciəsini bir gecənin içərisində törətdilər. Utanmadan, qızarmadan deyirlər ki, biz azərbaycanlıların Xocalıdan çıxması üçün dəhliz yaratmışdıq. O necə dəhliz idi ki, yüksəklikdə duran tanklardan və BTR-lərdən dinc sakinlər güllə- baran edildilər; nə uşaqlara yazıqları gəldi, nə xəstələrə, nə də qocalara.

Zori Balayan kimi namussuz və bişərəf adam çap etdirdiyi kitabda yazır ki, azərbaycanlı uşağın ağlamasının qarşısını almaq üçün anasının döşünü kəsib ağzına soxduq. Belə bir qəddar, qan içən adama yazıçı demək olarmı? Yazıçı sülh təbliğ eləyir, insanlığı sevməyi öyrədir. Zori Balayan kimi əclaf isə Xocalıdakı uşaqları və qadınları qanına qəltan eləməklə qürur duyur.

Təbii ki, Xocalı faciəsini yaşamış insanlar o depresiyadan uzun müddət çıxa bilməyiblər. Çünki sağ qalan insanların gözlərinin qabağında anaları, ataları, övladları amansızcasına qətlə yetiriliblər. Heç həmin günü unutmaqmı olar?

Əlbəttə, 26 fevral Azərbaycan xalqı üçün çox ağır bir gündü. Çünki bu gün tarixin ən ağır və faciəli gününü yaşamışıq. Və bu gün həm də Azərbaycan xalqını birləşdirir, onun qan yaddaşını möhkəmləndirir. Çünki bu ağır günü unutmaq, yaddan çıxarmaq elə özü yenidən hansısa bir faciəni yaşamaq deməkdir.



**Artıq Xocalı faciəsi dünya səviyyəsində tanınır və biz də bu günü tək fevralın 26-da deyil, ilin bütün günlərində yada salmalıyıq. Yada salmalıyıq ki, həmin qanlı faciə on milyonluq əhalinin yadından çıxmasın və yaddaşlara daha da möhkəm qalsın. Və bir də biz tezliklə Xocalıya dönəcəyimizə möhkəm əminik.**

**Afiq MƏMMƏDOV**
**Bakı şəhəri, 15 saylı**
**Notariat ofisinin xüsusi notariusu**

Ədalət 2019.- 27 fevral.- S.3.